# "KÖHLƏN ATLARI KÖHNƏ KİŞİLƏR MİNİB O DÜNYAYA GETDİLƏR"



Vaqif YUSİFLİ,
filologiya elmləri doktoru

**Ənvər Məmmədxanlı mənim ilk gənclik illərimin sevimli yazıçısı idi. Söz sənətinə bağlanmağımda bir neçə yazıçı ilə birgə onun da böyük rolu olub. Lirik üslubda yazdığı hekayələri məni sehirləmişdi. Xüsusilə, "Karvan dayandı", "Ay işığında", "Qızıl qönçələr" hekayələri mənim üçün sanki romantik dünyadan gəlmiş əziz qonaqlar idi. Bu hekayələrin dili o qədər cazibədar idi ki, fikirləşirdim yazıçı ancaq bu tövr yazmalıdır. "Aşıq Valeh o qədər qocalmışdı ki, neçə-neçə yüz illər karvanını yola salmış, budaqlarının bir çoxu qurumuş, bəziləri qaralıb kösəyə dönmüş və başına tarixdən əvvəlki ildırımlar düşmüş qocaman bir çinara oxşarı vardı" ("Ay işığında"). "Axşamlar günbatan çağı o meşədən mahnı oxuyan bir səs ucalırdı və o meşə ki, çox qalınlıq idi, gündüzün işığı orda tez azalırdı, ağacların dibi qaranlığa batırdı və axşam günəşinin şüaları ilişirdi ağacların başında qalırdı-bu vaxt elə bil meşə özü dil açırdı və oxumağa başlayırdı" ("Karvan dayandı").**

Belə bir yüksək dil mədəniyyətinə malik olan yazıçı eyni zamanda, öz hekayələrində yaddaqalan obrazlar da yaradırdı. Və qeyd edim ki, bu hekayələri heç cür sosialist realizmi nümunələri saymaq olmazdı. Çünki onun bədii yaradıcılığı sosrealizmin tələb və prinsiplərindən yüzə yüz olmasa da, hər halda bir qədər fərqli idi.

Çox sonralar bu böyük yazıçı ilə tanış oldum, bir neçə dəfə canlı söhbətlərinin şahidi oldum. Onun estetik dünyasını ötəri də olsa seyr elədim və Ənvər Məmmədxanlı mənə yaşadığımız dünyanın yox, yaşamaq istədiyimiz, amma yaşaya bilmədiyimiz dünyanın adamı təsiri bağışladı. Fikirləşirdim ki, otuzuncu illərin, qırxıncı illərin, əllinci-altmışıncı illərin məlum insan stereotiplərinə qətiyyən oxşamır. Bir Şərq adamı kimi möhtəşəmliyini qoruyub saxlayasan, həm də zövqü, estetik düşünjə tərzi etibarilə bir qərblidən seçilməyəsən, -bu necə olur.

Məmmədxanlının bir insan-yazıçı-ziyalı kimi elə bilirəm, iki dövrü olub. Birinci dövrü onu bir yazıçı kimi tanıdıb. O, nəsr və dram əsərlərini yazıb, müharibə illərində publisistik məqalələr qələmə alıb, ta yetmişinci illərə qədər məhsuldar olmasa da, qeyri-məhsuldar yazıçı da olmayıb. Sadəcə olaraq, öz qələminə, ilhamına xəyanət eləməyib, az yazıb. Başqaları xalvar-xalvar romanlar, povestlər yazıb nəşr etdiriblər, o isə susub. Bu susmağı, yəni görünməmək, haqqı verilməsə belə üzə durmamaq duyğusu onun xasiyyətinin bir hissəsiydi. İnqilabi mövzuda yazdığı "Şərqin səhəri" pyesi SSRİ Dövlət mükafatına təqdim olundu, o pyesin recissoru, bir neçə aktyoru, rəssamı həmin mükafata layiq görüldülər, bircə əsərin müəllifindən-Ənvər Məmmədxanlıdan başqa

Ancaq mən bir dəfə bu yazıçının cəsarətli bir çıxışının şahidi oldum və o zaman fikirləşdim ki, onun yazı yazmamağı heç də ədəbi susqunluğuna dəlalət eləmir.

Yaxşı yadımdadır, 1980-ci ildə Yazıçılar İttifaqının "Natəvan" klubunda yazıçı Mövlud Süleymanlının "Dəyirman" povesti müzakirə olunurdu. Əsər "Azərbaycan" curnalında çap olunan kimi böyük əks-səda doğurmuşdu. Müzakirədən əvvəl qəzetlərin birində "Qorxulu dəyirman" adlı bir məqalə çap olunmuşdu və həm bu məqalədə, həm də ayrı-ayrı söhbətlərdə tez-tez soruşulurdu ki, bu necə dəyirmandır, bu necə Azərbayjan kəndidir, hanı yazıçının mövqeyi? Müzakirədə iki tərəf üz-üzə durmuşdu. "Dəyirman" əsərini bəyənən, onu nəsrimizdə maraqlı bir hadisə hesab edənlər, bir də əsəri bəyənməyənlər, kəskin tənqid atəşinə tutanlar Birincilər- İlyas Əfəndiyev, İsmayıl Şıxlı,Yaşar Qarayev, Kamil Vəliyev, Gülrux Əlibəyova, Aydın Məmmədov...İkincilər- Əli Vəliyev, Əziz Mirəhmədov, Ələviyyə Babayeva, Əlisəfa Məmmədov, Məzahir Abbasov. Ənvər Məmmədxanlı da çıxış etdi və üstündən 33 il keçməsinə baxmayaraq, onun çıxışını unutmamışam (həmin müzakirədə stenoqrafçını mən əvəz eləmişəm).

"Mənim fikrimcə, Mövlud Süleymanlını bu əsərinə görə alqışlamaq lazımdır. O, istedadlı nasirdir. Əla yazı manerası, dili, üslubu var. Əsərdə təsvir olunan hadisələr də inandırıcıdır. Bu və ya buna bənzər hadisələrə həyatımızda həmişə təsadüf oluna bilər. Doğrudur, müəllif qroteskdən istifadə etmişdir, yəni mənfiliyi, eybəjərliyi açıq şəkildə qabartmışdır, amma bu məsələnin sənətkarlıq tərəfidir. Mən də bununla razıyam ki, müəllif gərək söyüşlərdən, bəzi vulqar ifadələrdən çəkinəydi.

Burada çıxış edənlərin bir çoxu yazıçı kimi deyil, müstəntiq kimi danışdılar. Nə tez unuduldu o məşum illər. Bəsdir daha, yığışdırın bu oyunları, o məşum illərin oyunlarını oynamayın, siz o illəri qaytara bilməyəjəksiniz. Mən sizdən heç vaxt qorxmamışam". Yalnız sonralar, 1992-ci ilin dekabr günlərinin birində Ə.Məmmədxanlının 80 illiyi ilə bağlı onun bacısı Həbibə xanımla müsahibə aparanda "o məşum illərin oyunları" ifadəsi yadıma düşdü, bir də "mən sizdən heç vaxt qorxmamışam" sözləri. Mən mümkün olduğu qədər Ənvər Məmmədxanlının həyatının gizlinlərini öyrənməyə çalışırdım.

Məlum oldu ki, onların atası Qafar kişi Müsavat Partiyasının üzvü olub, buna görə dörd il həbsdə yatıb. 1937-ci ildə onu təzədən tutacaqdılar, amma bunu bilib aradan çıxdı, üz tutdu Gürcüstana və orada da vəfat etdi. Ənvər soraqlaşa-soraqlaşa gedib onun məzarını tapdı, atamın meyitini çıxardı, Mirzə Fətəli Axundov dəfn olunan yerə gətirdi, son borcunu yerinə yetirdi.

Ənvər Sovet Ordusu sıralarında Təbrizdə olub, "Vətən yolu" qəzetində çalışıb.

Çox qürurlu və romantik olan Ənvər Məmmədxanlının qəribə və özünəməxsus dünyası vardı. Həbibə xanım deyirdi ki, biz hər il yayda dincəlmək üçün İsmayıllının Quşencə kəndinə gedərdik. O kəndin təbiəti də gözəl idi, adamları da. Ənvər saatlarla o kəndin meşələrinə çəkilir, xəyallara dalardı.

Elə uşaqlıqdan risq etməyi çox sevərdi. Heç nədən qorxusu yox idi. Quşencədə kirayə qaldığımız ev bir dərənin kənarında idi. Bir gün səs-küy qalxdı, dedilər kəndə janavar girib. Ənvər götürüldü, "ay Ənvər, hara gedirsən" dedik. Yarım saat keçdi, ürəyimizi yemişdik, gördük ki,Ənvər əlində balaca bir küçük evə sarı gəlir, istəməyib ki, o balca küçük kimsəsiz qalsın.

Ən yaxın dostlarından biri də Əvəz Sadıq idi. O deyirdi ki, Ənvər Təbrizdə olanda gördük ki, bir cüzamlı kişini danışdırır. Çox işarə etdik, adətən, belə xəstələr xəbis olur, adamın üzünə tüpürür, xəstələndirirlər. Amma Ənvər söhbətini qurtarmamış o kişidən əl çəkmədi.

Cəfər Xəndan deyirdi ki, Stalinqradda, döyüş xəttinin lap yaxınlığındaydıq. Birdən həyəjan siqnalı eşidildi. Hamı təbii ki, qaçıb gizləndi, birjə Ənvərdən başqa. O, həyətdə heç nə olmamış kimi gəzir, o baş-bu başa gedirdi.

Həbibə xanım deyirdi ki, Ənvərin bir xasiyyəti də haqsızlığa dözməməyiydi. Dağıstanın tanınmış şairi Rəsul Həmzətov o zamanlar Bakıya gələndə tez-tez Rəsul Rzagilə gəlirdi, amma özünü çox nəlayiq aparırdı. Bir gün yenə içib Azərbayjan qadınlarını təhqir edən bir söz eşitdi. Onda Ənvər Rəsul Həmzətovun üstünə yeridi, ona bir sillə çəkdi, Anar orada olmasaydı, lap döyəjəkdi onu (Rəsul Rza ilə Ənvər Məmmədxanlı həm xalaoğlu, həm də əmioğlu idilər).

Həbibə xanım bir də onu deyirdi ki, Ənvər Məmmədxanlı bizimlə özü arasında əbədi bir mehr körpüsü salmışdı, bizim uşaqlarımızı, nəvələrimizi o qədər sevirdi ki, saatlarla o uşaqlarla əylənərdi. Bircə köynəyini, dəsmalını yumağımıza imkan verməzdi, bunu özü edərdi.

Ömrünün son illərində mədəsi incidirdi onu. Tək yaşamaq, nə gəldi bişirib yemək, kimsəni əziyyətə salmamaq xətrinə öz-özünə qulluq eləmə, xəstəliyin səbəbləri bunlar idi. 90-cı ilin qışı idi, onun xəstələnməsini eşitdik, xəstəxanaya apardıq, cəmi dörd gün yatdı. Axırınjı gejə dedi ki, sən get, sabah yemək yox, mənə qəzet gətir oxuyum. Səhərisi isə o, dünyada yox idi.

Böyük Vətən müharibəsinin sərt qış günlərinin biri. Qucağında körpə bir ana yol gedir. Hara, nə üçün? Birjə o məlumdur ki, gənj ana həmin körpəni nəyin bahasına olursa-olsun qorumalıdır. Şaxta və külək isə bu amansız rus qışında öz hökmünü verir. Bəs ana nə edir?

Ana buz heykələ dönür, amma körpəsini xilas edir. "Buz heykəl" hekayəsi sənətkarlıqla qələmə alınmışdı və çox-çox sonralar da o hekayənin bədii-emosional təsiri unudulmadı.



Çox sonralar, Ə.Məmmədxanlının anadan olmasının 70 illiyi münasibətilə çap etdirdiyitm bir yazıya da həmin hekayənin təhliliylə başlamışdım. Ənvər müəllim soraqlaşıb məni tapmışdı, yazımdakı bəzi fikirləri bəyəndiyini bildirmişdi. Amma gileyi bu oldu ki, niyə onun "Buz heykəl" kimi zəif bir əsərini tərifləmişəm. Doğrusu, bu sözdən sonra heyrətim daha da artdı, heç nə deyə bilmədim. Görünür, yazıçı üçün elə bir an gəlib yetişir ki, o, dönüb arxaya baxır, hansı əsərinin səmimi yazıldığına, əbədi yaşayacağına özünü inandırır.

"Buz heykəl" yazılanda isə Ə.Məmmədxanlı Böyük Vətən müharibəsi cəbhələrindəydi. O, kəskin qələmiylə şahidi olduğu hadisələrdən yazır, Azərbaycan döyüşçülərini qəhrəmanlığa ruhlandırırdı. Cənub-Qərb cəbhəsində yazdığı "Qərbə atəş" cəbhə qeydləri belə başlanırdı: "Mən cəbhə yollarındayam. Bu yollar tək müharibənin deyil, əsrin, epoxanın yollarıdır. Bu yollar gələjəyin, dünyanın, bəşər taleyinin yollarıdır. Bu yollar gənj səadətin, qarı fəlakətin yollarıdır".

Yeri gəlmişkən qeyd edək ki, Ənvər Məmmədxanlı XX əsr Azərbaycan nəsrində lirik-romantik üslubun yaradıcılarındandır. Bu üslubu səciyyələndirən birinci əlamət real həyat hadisələrinə lirik-poetik yönümdən yanaşılmasıdır.

Gözəlliyin təsviri Ə.Məmmədxanlı nəsrində gözəlliyin, ülviliyin təsdiqidir. Lirik-romantik üslübu səciyyələndirən ikinci əlamət isə bir qədər formal xarakter daşıyır.

Yazıçının dili, təhkiyə tərzi, poetik monoloqları mənsur şeiri xatırladır. Onun nəsrini, dram əsərlərini, hətta adi cəbhə qeydlərini də həyəcansız oxumaq olmur.

Ənvər Məmmədxanlı ədəbiyyata nasir kimi gəlmiş, "Burulğan" adlı ilk əsərini 1934-cü ildə çap etdirmişdir. Bu povest göstərdi ki, nəsrə öz üslubu və nəfəsi olan istedadlı bir sənətkar gəlib. Səksən il əvvəl qələmə alınmış "Burulğan" povesti 30-cu illər üçün xarakterik olan fəhlə həyatı mövzusunda yazılmışdı. Lakin yazıçı istehsalat səhnələrindən sərf-nəzər edib diqqəti daha artıq obrazların daxili aləminə, psixologiyasına yönəldir.

Ənvər Məmmədxanlı nəsrinə xas olan orijinal xüsusiyyətlər onun dramaturgiyasında da aydın nəzərə çarpır. Gərgin, koloritli səhnələr, parlaq və realist xarakterlər, obrazların daxili aləminin təsirli lövhələrlə təqdimi onun dram əsərlərinin başlıja xüsusiyyətləridir. 1947-ci ildə yazılmış "Şərqin səhəri" dramı tarixi mövzudadır, əsərdə 1919-1920-ci illər Azərbayjanın müxtəlif sinif və təbəqələrinin baş verən ictimai-siyasi hadisələrə münasibəti ilə qarşılaşırıq. Pyesdə ən qüvvətli xarakter Bakı milyonçusu Ağalarovdur. Onun Bakı ilə, sahibi olduğu, indisə, əlindən çıxdığı neft buruqları ilə vidalaşması necə də təbiidir. Ağalarov öz sinfinin ağıllı, qabağı görən nümayəndəsidir, qırmızı inqilab tufanının yaxınlaşdığını hiss edib, başqalarından fərqli şəkildə düşünür, yol axtarır. Elə buna görə də o, xırda məqsədləri, kiçik "döyüş" üsullarını rədd edir. Diqqət yetirsək, görərik ki, Azərbayjanın o zamankı taleyini, sonrakı aqibətini Ağalarov necə də həssaslıqla hiss edirmiş.. Onun ingilis generalı Tomsona söylədiklərinə diqqət yetirin: "General həzrətləri, hökumət dəli dərviş kimi dağa-daşa düşə bilər, amma neft Bakıdadır, neft mədənlərini Gəncəyə, Şuşaya, Şəkiyə köçürmək olmaz..Neft hər gün sağmal inək kimi sağılmalıdır, ara verilsə, qara inək süddən düşər. Quyular zay olub gedər. Amma bütün anbarlar neft ilə dolub, biz neft içində boğuluruq. Çıxarılan nefti ixrac eləmək lazımdır və Bakı nefti ki, qara cövhərdir, ən əla neftdir, dünya bazarlarında müştəriləri çoxdur".

"Babək" Ə.Məmmədxanlının ilk və son romanı idi. Romanın I hissəsi tamamlanmayıb. "Babək" bədii filminin ssenarisi isə birinci hissənin davamı olaraq romana əlavə edilib. Əsəri çapa hazırlayan Anarın fikrincə, "yazıçının içəri dünyasında" gördüyü Babək obrazı, onun ətrafı-dostlar və düşmənlər-əsərlərin personacları elə dəqiq.dürüst düşünülüb-duyulub ki, birinci hissədə-roman səhifələrində janlanan fərdlər öz mahiyyətini, səjiyyələrini, sifətlərini ikinci hissədə-ssenaridə də hiss edirik. Hiss olunur ki, "Babək" romanı Babək dövrünün dini-fəlsəfi mahiyyətini dərinliyilə duyan.tarixi hadisələrin arxasında sürünməyib bu hadisələrə tamam yeni bir aspektdə diqqət yetirən bir yazıçı tərəfindən qələmə alınmışdır. Əsərdə tarixi məlumatlar yetərincədir, bu məlumatlar "Babək" dövrünün ictimai-siyasi, dini-fəlsəfi, hətta coğrafi mənzərəsini bütün genişliyilə gözlərimiz qarşısında canlandırır. Romanın yazılış tərzi də nəsr üçün yenidir, orta əsr Şərq nəsrinin üslubuna yaxındır.

Anar romana yazdığı müqəddimədə xatırladır ki, "Azadlıq yanğısı" Ə.Məmmədxanlının ən çox sevdiyi ifadə idi və yazıçı hamını sıxan mənəvi əsarət dövründə bu əsəri məhz azadlıq eşqinə və azadlıq eşqilə yaratmışdı.

"Babək dedi:

-Ey kor yapalaq, siz heç vaxt dərk etməyəcəksiniz ki, azadlıq yanğısı nə deməkdir. O dəhşətli yanğı ki, ürəyi yandırıb külə döndərir. Azadlıq! İstər o şirin olsun, istər acı-yalnız o idi mənim səcdəgahım! Və bu müstəbid ki, məni öldürür, o da heç vaxt anlamayacaq ki, ölümü ilə azadlıq fədaisi büsbütün məhv olmur".

..Ənvər Məmmədxanlının "Ayrıldılar" hekayəsində personaclardan biri belə deyir: "Köhlən atları köhnə kişilər minib o dünyaya getdilər".

**İndi Ənvər Məmmədxanlı kimi köhnə kişilər qalmayıb daha.. Bu faciəmi, dərdmi, deyə bilmərəm. Anjaq onu deyə bilərəm ki, o köhnə kişilərin açdığı yollar olmasaydı, biz yolsuz qalardıq.**